BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№1 Humanitar elmlər seriyası 2010

# TOFİQ FİKRƏT VƏ AZƏRBAYCAN ƏDƏBİYYATI

K.N.NƏCƏFOVA
*Bakı Dövlət Universiteti*
*kemale.n*

*XX əsr Azərbaycan romantizminin mənbələrindən biri türk ədəbiyyatı olmuşdur. Azərbaycan romantiklərinə təsir göstərən qabaqcıl Türkiyə şairlərindən biri də Tofiq Fikrət (1867-1915) idi. O, Hüseyn Cavid, Məhəmməd Hadi və digər ədiblərimizin yaradıcılıq inkişafında əhəmiyyətli rol oynamışdır.*

*Məqalədə demokratik türk poeziyasının ən görkəmli yaradıcılarından olan Tofiq Fikrətin zəngin yaradıcılığının Azərbaycan ədəbiyyatına göstərdiyi təsir araşdırılır.*

*Zülmün topu var, gülləsi var, qəl'əsi varsa,*
*Haqqın da bükülməz qolu, dönməz üzü vardır.*
*Göz yumma günəşdən, nə qədər nuru qaralsa,*
*Sönməz əbədi, hər gecənin gündüzü vardır.*

**T.Fikrət**

XIX əsrin sonu XX əsrin əvvəllərində demokratik türk poeziyasının ən görkəmli yaradıcılarından biri Tofiq Fikrətdir (1867-1915). O, «Ədəbiyyati-cədidə»nin ən parlaq təmsilçilərindən biri, «Sərvəti-fünun» (1896-1901) ədəbiyyatının ən böyük şairidir. Fikrətin şeirlərində eşq, qadın, insanlıq, haqq, ədalət, istiqbal, vətən, millət sevgisi kimi mövzular dərin anlamda işlənmiş, böyük əhəmiyyət kəsb etmişdir. Məhz bu ideyaların tərənnümü, dövrü üçün çox əhəmiyyətli mövzularda yazıb-yaratması Azərbaycan ədəbi ictimaiyyətinin diqqətini Tofiq Fikrət irsinə cəlb etmişdir.

XX əsr Azərbaycan ədibləri, xüsusilə romantiklərinin qaynaqlandığı mənbələrdən biri də türk ədəbiyyatı idi. Bu dövr yazıçıları Namiq Kamal, Mahmud Əkrəm Rəcaizadə, Əbdülhəq Hamid, Tofiq Fikrət kimi yeni türk ədəbiyyatı banilərinin əsərlərini sevib onlardan bəhrələnirdi. Azərbaycan ədəbi dilinə də Türkiyə türkcəsinin böyük təsiri var idi. Belə ki, bu dövrdə İstanbula üz tutan türkçülüyə meylli ziyalı və ədiblərimiz Türkiyə mühitinə düşmüş, bununla da türk ləhcəsini əxz etmiş oldular. Əsərlərinin dilindəki türk ləhcəsi də bundan irəli gəlirdi.

Azərbaycan dilində türk ləhcəsinə meyl edilməsində Ə.Hüseynzadə başda olmaqla «Füyuzat» cərəyanının rolu da böyük olmuşdur.

Əli bəy Hüseynzadə Hamid və Fikrətə və onların əllərində qüdrətli və ahəngli bir ifadə formasına girən İstanbul ləhcəsinə heyran idi. O, yeni açılacaq türk məktəbləri və mətbuatı vasitəsilə bu ləhcəni Qafqaz türkləri arasında ədəbi ləhcə olaraq yaymaq və yeni azəri ədəbiyyatını bu ləhcə üzərində qurmaq istəyirdi. «Füyuzat»

məcmuəsi ilə başlayan və xüsusilə yeni azəri nəzmini yaratmaq üçün böyük müvəffəqiyyət göstərən yeni cərəyan Avropa ədəbiyyatının yüksək sənət əsərlərinə bənzəyən nümunələri yeni Osmanlı ədəbiyyatında tapdı (7, 88).

Ə.Hüseynzadə «Füyuzat» jurnalında dərc etdirdiyi məqaləsində Fikrət sənətinə böyük qiymət vermişdir. O, «Qırmızı qaranlıqlar içində yaşıl işıqlar» yazısında Fikrət yaradıcılığını belə xarakterizə edir: «Osmanlı dekadentizma nəzminin ən mahir şairi «Rübabi-şikəstə»yi yazan Tofiq Fikrət olduğu kibi, nəsrinin də ən bəliğ ədibi «Mavi və siyah» mühərriri olan hekayənəvisi-şəhir Üşşaqizadə Xalid Ziya bəydir. Hər ikisi də türkün şivəsini naqabil təqlid, hətta bəzi Avropa lisanlarına faiq bir surətdə dərəceyi-qüsvayi-təkəmmülə isal edib üslubi-ifadələri qayət səlis, qayət ahəngdar, qayət parlaq, fikir və xəyalları kibi qayət ruhlu və müəssirdir (6,67:68).

Mətbuat səhifələrində Namiq Kamal, Əbdülhəq Hamid, Tofiq Fikrət kimi klassiklərin əsərləri tez-tez çap olunur, onların yaradıcılıq xüsusiyyətlərini izah edən məqalələr yazılırdı.

1924-cü ildə Fikrətin əsərləri Mərkəzi Şərq nəşriyyatı tərəfindən 112 səhifə həcmində ayrıca kitab halında nəşr olunmuşdur. Əli Əjdər Səidzadənin müqəddiməsi ilə nəşr olunan «Tofiq Fikrət: müntəxib parçalar» adlı kitabça haqqında Əziz Şərif «Qızıl qələm» jurnalında öz qeydləri ilə çıxış etmişdi. Ə.Şərif kitabçaya daxil edilən şeirlər arasında ««Sis» və «Tarixi-qədimi-bəşər» kimi türk ədəbiyyatında misli görünməyən möhtəşəm, dərin ictimai və fəlsəfi əhəmiyyəti hayiz parçaların» dərc olunmasını xüsusilə dəyərləndirirdi. O. Tofiq Fikrəti bir şair kimi belə qiymətləndirir: «Türk dərəbəyliyinin əndarazi və əcnəbi kapitalının Türkiyədə ilk tərəqqi və inkişaf dövründə yaşayan Tofiq Fikrət:

Haksızlığın envaini gördük... bumu kanun?
Ən qəmli səfalətlərə düşdük... bumu dövlət?
Dövlətsə də, kanunsa da artıq yetər olsun,
Artıq yetər olsun bu dəni zülmü cəhalət...

- deyə bütün köhnə türk mühit və hökumətinə qarşı elani-hərb edə biləcək qədər özündə inqilabi qüvvət və cəsarət tapa bilən yeganə türk şairi idi» (15,103).

Məhz «özündə inqilabi qüvvət və cəsarət tapa bilən yeganə türk şairi»- Türkiyədə zülm və istibdada qarşı alovlu şeirləri ilə çıxış edən mübariz, hürriyyətpərvər Fikrət, təbii ki, dövrünün müstəbid rejimi şəraitində yaşaya bilməzdi. 1908-ci il Türkiyə inqilabına böyük ümidlər bəsləyən, lakin yanıldığını görən şair etiraz səsini inqilabi şeirləri ilə bildirirdi. İttihad-tərəqqiçilərin siyasətinə və onların Türkiyənin inqilabçı-demokrat şairlərinə hücumlarına qarşı çıxan Tofiq Fikrət özü də hücumlara məruz qalırdı. Akademik Məmməd Cəfər məhz belə bir şəraitdə Hadinin Tofiq Fikrəti müdafiəyə qalxmasını belə açıqlayır: «Fikrətə qarşı 1910-1912-ci illərdən başlayan bu hücum birinci imperialist müharibəsi ərəfəsində daha da qüvvətlənmiş və Fikrətin ölümündən sonra da (1915-ci ildən sonra) davam etmişdi. M.Hadi belə bir şəraitdə Tofiq Fikrəti, onun inqilabi fikirlərini, insanpərvər görüşlərini, Fikrətin demokratizmini və təsirli sənətini müdafiəyə qalxmışdı. M.Hadinin Tofiq Fikrəti müdafiə etməsinin başqa mühüm bir səbəbi də vardı: M.Hadi özü də Türkiyədə İstanbulda olduğu illər ittihad-tərəqqiçilərə qarşı başlanan mübarizədə şeirləri ilə iştirak etmişdi. Vətənə qayıtdıqdan sonra da Fikrəti müdafiə etməklə, Hadi eyni zamanda ittihad-tərəqqiçilərə qarşı tutduğu cəbhədə möhkəm durduğunu nümayiş etdirmək istəmişdi (3,57).

Fikrət hələ 1911-ci ildə «95-ə doğru» şeirini yazdığı vaxtlarda onun əleyhinə çıxanlar da olmuş, hətta şairin əleyhinə məqalələr yazıb şeirin son

Qopsun səni bir haq deyə alqışlayan əllər

- misrasını

Qopsun səni «Fikrət» deyə alqışlayan əllər

- şəklinə salmışlar. O vaxt Tofiq Fikrəti dərindən sevən, onun təsiri altında şeirlər yazan Azərbaycan şairi Məhəmməd Hadi, Fikrəti alqışlayıb, onun müarizlərinə cavab olaraq:

Ey dəsti—hünər, dəsti-ədəb, dəsti -rəhasaz,
Alqışlayan əllər səni, əlbəttə, qırılmaz

-demişdir (1,678).

Tofiq Fikrətin milli intibaha və mənəvi azadlığa çağırış idealları Hadinin üsyankar romantikasına daxilən yaxın və doğma idi:

Ey inqilab şairi, nəğmənlə inlədin!
«Dünya dəyişdi, əski dimağı atın!»- dedin...
«Əski düşüncə, əski həyatı atın!»- dedin,
«Zülmət, ölüm doğan bu yeri parlatın!» - dedin (8,453).

Fikrətə xitabən yazdığı şeirlər göstərir ki, Hadi müasiri olduğu dahi şairin yaradıcılığını diqqətlə izləmişdir. Hadinin bir sıra şeirləri böyük ədib hesab etdiyi Tofiq Fikrətə həsr olunub. «Bir iştikayi-möhriq. Çeşmi-ədəb bu gün ədəbiyyata ağlayır», «Tofiq Fikrətə», «Xəluqun pədəri», «Fikrət!» şeirləri bu qəbildəndir.

Ədədi irsində Fikrət yaradıcılığının ruhu, təsiri duyulan şairlərimizdən biri Hüseyn Caviddir.

Torpaq vətənim, növi- bəşər millətim ... insan
İnsan olar ancaq, buna izanla inandım.
Şeytan da bizik, cin də, nə şeytan, nə mələk var,
Dünya dönəcək cənnətə insanla inandım.

Fitrətdə təkamül əzəlidir, bu kəmalə
Tövrat ilə, İncil ilə, Quranla inandım.
Əbnayi-bəşər bir-birinin qardaşı... xülya!
Olsun, mən o xülyaya da min canla inandım (4,115).

Fikrətin bu misralarında tərənnüm olunan ideyalar- insanlığa, gələcəyə, bəşəriyyətin səadətinə inam, müharibəyə nifrət, humanizm ideyaları Cavid yaradıcılığı üçün də səciyyəvidir. Yaradıcılığının devizi sayıla biləcək «məhəbbətdir ən böyük din» fəlsəfəsi ilə yazıb-yaradan Cavidin əsərlərində də bu ideyaların təbliği başlıca yer tutur.

Fikrət «kainat sahibi»ndən bəşəriyyətdə bütün müharibələrə son qoyulmasını istəyirsə, Cavid də «müharibə allahı»na qarşı eyni tələblərlə çıxış edir:

Endir ey cəngcu xəbis sənin
Pərdələr səhneyi-qiyamətinə,
Sönsün artıq bu daimi fitnə...
(T.Fikrət).

Artıq bitir şu səhneyi, ey müftəris dəha!
Endir şu qanlı pərdəyi, ey rəhnümayi –şər!
Endir də bir qədər nəfəs alsın bəni-bəşər.
(H.Cavid).

«Qüruba qarşı» şeirində Cavidin:

Könüllər qan, çiçəklər qan, bütün çöllər, çəmənlər qan,
Dənizlər qan, buludlar qan, hava qan, işte hər yer qan....

-ifadəsi, Fikrətin

Din şəhid istəyir, fələk qurban,
Hər zaman hər tərəfdə qan, qan, qan...

-deyə hayqırtılarını xatırladır.

Cavid, Fikrətin qabaqcıl görüşlərini yüksək qiymətləndirirdi. «Müharibə və ədəbiyyat» məqaləsində («Açıq söz» qəzeti, 1915) türk ədəbiyyatının fransız ədəbiyyatına qarşı həddindən artıq meylini, təqlidçiliyini pisləyərək qeyd edirdi ki, yalnız Rza Tevfiq, Əbdülhəq Hamid, Tevfiq Fikrət kibi məşahir, bir də milli ənənələri, milli duyğuları dinləyən bəzi gənc ruhlar, gənc qələmlər köhnəlikdən, müqəllidlikdən sıyrılmağa başladılar (2, 236).

«Qan qardaşı, can qardaşı, şan qardaşıyız biz» - deyən Tofiq Fikrət bəşəri qardaşlıq, insanpərvərlik ideyalarının tərənnümçüsü Abdulla Şaiqin yaradıcılığına da təsir göstərməmiş deyildi. «Hamımız bir günəşin zərrəsiyik» şeiri də ideyaca Fikrətlə bağlı olduğunu aydınlaşdıran misallardan biridir:

Hamımız bir yuva pərvərdəsiyik!
Hamımız bir günəşin zərrəsiyik!
Ayırmaz bizləri təğyiri-lisan,
Ayırmaz bizləri tədbili məkan.
Ayırmaz bizləri İncil, Quran,
Ayırmaz bizləri sərhəddi şəhan (11, 38).

Abdulla Şaiq Tofiq Fikrətin türk ədəbiyyatında başlıca xidmətini onun ədəbiyyata gətirmiş olduğu yenilikdə görür. «Tofiq Fikrətin türk ədəbiyyatı tarixində əhəmiyyəti» məqaləsində yazır: «Fikrətin əsərləri əsri üçün, şübhəsiz, böyük bir qüvvət idi. O, əskilik qarşısında diz çökərək boyun əymək zamanının çoxdan keçmiş olduğunu və halın rahat-rahat yatağında uyumaq zamanı dəxi olmadığını cəmiyyətə duydurdu. Əsri ehtiyacları, əsri təşəbbüsatı ona anlatdı, cəmiyyəti irəliyə, tərəqqiyə sövq etdi və cəmiyyətə özünü düşünməyi, özünü tənqid və islah edə bilmək yollarını göstərdi (12, 158).

A.Şaiq türk ədəbiyyatına böyük rəğbət bəsləmişdir. O, məktəb üçün hazırladığı dərsliklərdə də türk yazıçılarına geniş yer vermişdir.

Azərbaycanda türk ədəbiyyatının tədrisinə xüsusi diqqət yetirilmiş, onun görkəmli nümayəndələrinin yaradıcılığı geniş təbliğ olunmuşdur.

Bakı seminariyasında təhsil almış (1920-1925) professor Əkrəm Cəfər dərslərindən belə bəhs edir: «Azərbaycan ədəbiyyatını türk ədəbiyyatı ilə birlikdə keçirdik. Türk ədəbiyyatının Tənzimat, Sərvəti-Fünun, Milli ədəbiyyat adlanan dövrləri

xüsusilə diqqət mərkəzində idi. Çoxumuz kimi M.Şeyxzadə də elm, sənət təşnəsi idi. Tofiq Fikrətin «Rübabi-şikəstə»sini o qədər oxumuşdu ki, yarpaqları yıpranmışdı. M.Müşfiq ilə birlikdə M.Şeyxzadə bu kitabın dəlisi idi. Sonralar ədəbi qənaətlərimiz yetkinləşdi, duruldu, bəzi yazıçılara münasibətimiz dəyişdi. Ancaq türk ədəbiyyatında üç sənətkar: Namiq Kamal, Tofiq Fikrət və Əbdülhəq Hamid bizim üçün məbəd olaraq qaldı» (9, 13).

A.Şaiqin tələbəsi olmuş Həmid Araslı yazır: «Şaiq müəllim bizə tənzimat və ədəbiyyati-cədidə dövrü ədəbiyyatını öyrətdi. Ancaq elə öyrətdi ki, ömürlük bizim malımız oldu» (12, 46). A.Şaiqin digər bir tələbəsi Azad Əfəndizadə öz müəlliminin xüsusilə, böyük Sabirdən və humanist türk şairi Tofiq Fikrətdən hərarətlə danışdığını qeyd edir (13, 56).

M.Hadi, H.Cavid, A.Şaiq kimi Səhhət də dərsliklərində, dərslərində türk şairlərinə geniş yer verir, onların məşhur şeirlərini əzbər deyirdi. Müasir şeiri Nizami, Füzuli, Vaqif, Sabir kimi Azərbaycan klassiklərinin ənənələri zəminində inkişaf etdirməyə çalışırdı, bununla yanaşı, o, türk ədəbiyyatına, onun Ə.Hamid, N.Kamal, T.Fikrət kimi klassiklərinə də böyük ehtiram bəsləyirdi (14, 245).

Abbas Səhhət «Sınıq saz» kitabının adını da «Rübabi-Şikəstə»yə uyğun seçmişdir. Şair ilk şeirlər məcmuəsinin müqəddiməsində yazır: «Əsərlərim sınıq ürəkdən çıxan sızıltılar olduğu üçün fransızların şairi-əziminin «Zərfi-şikəstə» adlı əsərinə və türklərin böyük şairi Tofiq Fikrətin «Rübabi -şikəstə»sinə təqlidən «Sınıq saz» deyə adlandırdım» (10, 265).

Bu faktlar Tofiq Fikrət yaradıcılığına böyük məhəbbət və dərin rəğbətin göstəricisidir. Butun bunlar onu deməyə əsas verir ki, Azərbaycan ədəbi ictimaiyyəti Türkiyənin digər şairləri ilə yanaşı, Fikrətə də xüsusi ehtiram bəsləmiş, onun ən yaxşı yaradıcılıq ənənələrini öyrənmiş və təbliğ etmişdir. Əsas məsləyi insanlığa xidmət olan bu humanist şairin həyat və yaradıcılıq yolu ədiblərimiz üçün bir örnək olmuş, onların bədii-fikri inkişafında əhəmiyyətli rol oynamışdır.

## ƏDƏBİYYAT


1. Araslı H. Azərbaycan ədəbiyyatı: tarixi və problemləri. Bakı: Gənclik, 1998, 732 s.
2. Cavid H. Əsərləri: 5 cilddə: V c., Bakı: Lider, 2005, 288 s.
3. Cəfər M. Azərbaycan ədəbiyyatında romantizm. Bakı: Azərb. EA, 1963, 218 s.
4. Fikrət T. Seçilmiş əsərləri. Bakı: Azərnəşr, 1969, 179 s.
5. Füyuzat (1906-1907) / Tərtib edən: O.Bayramlı. Bakı: Çaşıoğlu, 2006, 512 s.
6. Hadi M. Seçilmiş əsərləri. Bakı: Şərq-Qərb, 2005, 464 s.
7. Köprülü F. Azəri. Bakı: Elm, 2000, 115 s.
8. Qarayev Y. Azərbaycan ədəbiyyatı: XIX və XX yüzillər. Bakı: Elm, 2002, 737 s.
9. Rza X. Məqsud Şeyxzadənin bədii yaradıcılığı. Bakı: Elm, 1980, 283 s.
10. Səhhət A. Seçilmiş əsərləri. Bakı: Lider, 2005, 456 s.
11. Şaiq A. Əsərləri: 5 cilddə: II c., Bakı: Azərnəşr, 1968, 602 s.
12. Şaiq A. Əsərləri: 5 cilddə: IV c., Bakı: Azərnəşr, 1977, 438 s.
13. Şaiqanə yad et. Bakı: Gənclik, 1981, 232 s.
14. Talıbzadə K. Seçilmiş əsərləri: 2 cilddə, I c., Bakı: Azərnəşr, 1991, 395 s.
15. 1920-ci illər Azərbaycan mətbuatında Türkiyə ədəbiyyatının tədqiqinə dair materiallar / Tərtibçilər: B.Osmanlı, S.Qasımlı. Bakı: Nurlan, 2004, 312 s.

## ТОФИК ФИКРЕТ И АЗЕРБАЙДЖАНСКАЯ ЛИТЕРАТУРА

К.Н.НАДЖАФОВА

### РЕЗЮМЕ

Одним из источников романтизма азербайджанской литературы XX века стала турецкая литература. Тофик Фикрет был (1867-1915 гг.) одним из передовых турецких поэтов, оказавших влияние на романтиков Азербайджана. Он сыграл значительную роль в развитии творчества Гусейна Джавида, Мухаммеда Хади и других литераторов.

В статье исследуется влияние творчества одного из самых выдающихся творцов демократической турецкой поэзии Тофика Фикрета на азербайджанскую литературу.

## TOFIG FIKRAT AND AZERBAIJAN LITERATURE

K.N.NAJAFOVA

### SUMMARY

One of the sources of the XX century Azerbaijan romanticism was the Turkish literature. Tofig Fikrat, is one of the leading Turkish poets who influenced to Azerbaijan romanticists. He had a significant role in the creativity of such poets as Huseyn Javid, Mahammad Hadi etc.

The article studies the influence of Tofig Fikrat's, one of the well-known creators of democratic Turkish poetry, rich activity to Azerbaijan literature.